AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 14 (1516), 26 aprel - 2 may 2022-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Paytaxtımız daha bir dünya kuboku yarışına uğurla ev sahibliyi etdi

Bakıda bədii gimnastika üzrə dünya kuboku yarışları keçirilib. Yarışda qeydiyyat siyahısına əsasən, 31 ölkədən 42-si fərdi və 84-ü qrup komandasının (14 qrup) üzvü olmaqla 126 gimnast iştirak edib. Üç gün davam edən yarışda gimnastlar ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparıblar.

Milli Gimnastika Arenasında keçirilən yarışda ölkəmizi fərdi növdə Arzu Cəlilova və Zöhrə Ağamirova, eləcə də Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Darya Sorokinadan ibarət qrup hərəkətləri üzrə komanda təmsil edib.

Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətlərindən ibarət komandası dünya kubokunda gümüş medal qazanıb.

Tərkibi Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət komandamız çoxnövçülükdə 63,650 xal toplayaraq ikinci olub. Gimnastlar üç lent və iki topla hərəkətlərdə 30,600 xala layiq görülüb. Yığmamız bundan əvvəlki çıxışında isə 5 halqa ilə 33,050 xal əldə etmişdi. İtaliya (64,600) seçməsi qızıl, İsrail (63,150) komandası isə bürünc medala sahib çıxıb.

Qrup hərəkətləri üzrə Azərbaycan komandası isə 5 halqa ilə proqramda fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Yelizaveta Luzan və Daria Sorokinadan ibarət komandamızın final çıxışı hakimlərdən 32,850 xal alaraq birinci yeri tutub. İtaliya komandası 32,450 xalla gümüş, İsrail gimnastları isə 32,050 xalla üçüncü olublar.



Dünya kuboku yarışında ən yüksək icra xalını toplamış idmançılara ənənəvi "AGF Trophy" kuboku təqdim edilib. Kubok Azərbaycan gimnastı Arzu Cəlilovaya və İtaliyanın qrup hərəkətləri komandasının üzvlərinə verilib. Kuboku Azərbaycan Gimnastika Federasiyasının baş katibi Nurlana Məmmədzadə təqdim edib. A.Cəlilova mükafatçılar sırasına düşə bilməsə də, İtaliya komandası dünya kuboku yarışlarını 3 medalla başa vurub.

Qeyd edək ki, bu, Azərbaycanın gimnastika növləri üzrə bu il ev sahibliyi etdiyi 5-ci beynəlxalq yarışı olub.

Xatırladaq ki, paytaxtımız 2005-ci və 2019-cu illərdə bu növ üzrə dünya çempionatına ev sahibliyi edib.




## "Zəfər Kuboku"nun qalibi "Neftçi" oldu

Kişi voleybolçular arasında keçirilən "Zəfər Kuboku"nun qalibi müəyyənləşib. Turnirin final mərhələsində "Neftçi" və "Murov" komandaları üz-üzə gəlib. "Sərhədçi" Olimpiya İdman Mərkəzində təşkil olunan qarşılaşma "Neftçi"nin qələbəsi ilə başa çatıb. "Neftçi" komandası həlledici görüşdə rəqibini 3:2 (25:23, 25:22, 26:28, 23:25, 15:11) hesabı ilə məğlub edərək əsas mükafata sahib çıxıb. "Zəfər Kuboku" turnirinin final oyunundan sonra bağlanış mərasimi keçirilib.

Mərasimdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Vətən müharibəsi qəhrəmanı Zaur Mirzəyev Qarabağ Zəfərinin tariximizin ən şanlı səhifəsi olduğunu bildiriblər. Qeyd edilib ki, Vətən müharibəsində ədalətin Azərbaycanın tərəfində olması, 20 faiz torpağımızın 30 ilə yaxın işğal altında qalmasına baxmayaraq xalqımızın bu haqsızlığı unutmaması, yurd, od-ocaq sevgisi, Ali Baş Komandan İlham Əliyevin ərazilərimizin geri qaytarılması istiqamətində yürütdüyü müdrik siyasət, xalqımızın dövlətimizin başçısının ətrafında sıx birləşməsi tarixi zəfərimizi gerçəkləşdirdi.

Çıxış edənlər Azərbaycanın 44 günlük Vətən müharibəsində şanlı qələbəsinə həsr olunan "Zəfər Kuboku"nun maraqlı mübarizə şəraitində keçdiyini, qələbə uğrunda komandaların əzmlə mübarizə apardıqlarını vurğulayıblar.

Sonra Azərbaycan Yüksək Liqasında, Super Liqada, həmçinin I Liqada fərqlənən komandalar mükafatlandırılıblar.

Turnirin yüksək səviyyədə təşkilinə görə "Sərhədçi" İdman Olimpiya Mərkəzinin rəhbərliyinə və "Sərhədçi" voleybol klubunun prezidenti Firdovsi Umudova minnətdarlıq ifadə edilib.

Aprelin 22-də start götürən yarışda yüksək Liqada ilk dörd pillədə qərarlaşan "Neftçi", "Murov", "Sərhədçi" və MOİK komandaları iştirak ediblər.

## Azərbaycan Ağır Atletika Federasiyasında təyinatlar olub

Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) İdarə Heyətinin iclası keçirilib. İclasda aprelin 9-10 tarixlərində təşkil olunan Azərbaycan çempionatının nəticələri, yığma komandanın formalaşdırılması, beynəlxalq turnirlərdə iştirak və digər məsələlərlə bağlı müzakirələr aparılıb, bir sıra qərarlar qəbul olunub. Qərara əsasən, Rizvan Rəsulov AAAF-ın baş katibi, Kamran Əliyev icraçı direktor, Emil Əliyev Azərbaycan milli yığma komandalarının baş məşqçisi, Asif Məmmədov kişilərdən ibarət yığma komanda üzrə böyük məşqçi, Sərdar Həsənov qadınlardan ibarət yığma komanda üzrə böyük məşqçi, Oktay Muxtarov isə yeniyetmələrdən ibarət yığma komanda üzrə böyük məşqçi təyin olunub.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*
**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## Anons

### *Şamaxı şəhər stadionunda uşaq futbolunun inkişafı üçün hərtərəfli şərait yaradılıb*

Səh. 4

### Vətən müharibəsi şəhidlərinin xatirəsinə boks yarışı keçirilib

Səh. 6




**1/2 final görüşü**

**26 aprel, Saat 23:00**

"Mançester Siti" - "Real"
"Etihad" stadionu, İngiltərə

**27 aprel, Saat23:00**

"Liverpul" - "Vilyareal"
"Enfild road" stadionu, İngiltərə

# Cüdoçularımız Avropa podiumlarında uğurla çıxış ediblər

Xorvatiyanın Dubrovnik şəhərində cüdo üzrə böyüklər arasında Avropa kuboku turniri keçirilib. 24 ölkədən 235 (156 kişi, 79 qadın) cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. İki gün davam edən yarışda komandamız 10 cüdoçu ilə təmsil olunub. Millimiz yarışı 4 qızıl və 1 bürünc medalla başa vurub. Komandamızın aktivinə qızıl medalları İsmayıl İbrahimov (66 kq), Nəriman Mirzəyev (73 kq), Zelim Tçkayev (81 kq) və İmran Yusifov (+100 kq) qazandırıblar. Komandamızın digər üzvü Nazir Talıbov (60 kq) isə bürünc medala sahib çıxıb. Bununla da Azərbaycan millisi medal əyarına görə, komanda hesabında birinci yeri tutub.



* * *

Fransanın Strasburq şəhərində yeniyetmə cüdoçular arasında keçirilən Avropa kuboku yarışına yekun vurulub. 20 ölkədən 350 idmançının iştirak etdiyi yarışda Azərbaycan komandası da təmsil olunub. Komandamız yarışda 18 (15 oğlan, 3 qız) cüdoçu ilə mübarizə aparıb. Cüdoçularımız yarışı iri qızıl, üçü gümüş, beşi bürünc olmaqla, 9 medalla başa vurublar. Cüdoçularımızdan Nizami İmranov (60 kq) bütün rəqiblərini məğlub edərək qızıl medala sahib olub. Məhəmməd Musayev (55 kq), Nicat Nağıyev (66 kq) və Əli Hacızadə (73 kq) yalnız finalda uduzaraq gümüş medal qazanıblar.

Məhəmməd Məmişov (50 kq), Şahin Oruczadə (55 kq), Əbil Yusubov (66 kq), Xalid Məmmədov (50 kq) və Nahid Tarquliyev (73 kq) isə üçüncü yeri tutublar. Komandamız yarışı ümumi hesabda üçüncü, kişilər arasında isə ikinci yerdə tamamlayıb.

* * *

Polşanın Poznan şəhərində cüdo üzrə gənclər arasında Avropa kuboku yarışı keçirilib. 17 ölkədən 288 idmançının iştirak etdiyi yarışda Azərbaycan cüdoçuları da tatami üzərinə çıxıblar. Komandamız yarışda 22 (17 oğlan, 5 qız) cüdoçu ilə təmsil olunub. Komandamız yarışı 2 qızıl, 2 gümüş və 1 bürünc medalla başa vurub. Cüdoçularımızdan Aytac Qardaşxanlı (63 kq) və Vüqar Talıbov (90 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib çıxıblar. Gümüş medalları isə komandamızın aktivinə Könül Əliyeva (48 kq) və Səbinə Əliyeva (57 kq) yazdırıblar. Komandamızın digər üzvü Qədir Hüseynov (73 kq) isə bürünc medala sahib olub.



# Fərid Qayıbov Abşeron Olimpiya İdman Kompleksi ilə tanış olub

Gənclər və idman naziri Fərid Qayıbov Abşeron rayonunda səfərdə olub. Nazirlikdən verilən məlumata görə, o, əvvəlcə Abşeron rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevlə birlikdə Xırdalan şəhərində ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, xatirəsini ehtiramla yad edib.

Daha sonra Xırdalandakı şahmat məktəbinin fəaliyyəti ilə tanışlıq olub. Burada həyata keçirilməsi nəzərdə tutulan təmir işləri barədə nazirə məlumat verilib. Gənc idmançılarla görüşən F.Qayıbov onlarla söhbət edib, hazırlıqları ilə maraqlanıb.

Nazir, həmçinin, Abşeron Olimpiya İdman Kompleksi ilə də tanış olub, buradakı məşq zallarına, stadiona və mehmanxanaya baxış keçirib. Qeyd olunub ki, kompleks açılışdan sonra - pandemiya dövründə müvəqqəti olaraq, xəstəxanaya çevrilmişdi. Artıq pandemiyanın zəifləməsi səbəbindən xəstəxana kimi fəaliyyət göstərməyinə ehtiyac qalmadığı üçün Olimpiya İdman Kompleksinin yaxın vaxtlarda yenidən idmançıların istifadəsinə verilməsi nəzərdə tutulub.

İdman bölmələrinin fəaliyyəti ilə maraqlanan F.Qayıbov gənclərin idman məşğələlərinə daha çox cəlb edilməsi, kütləviliyin təmin edilməsi, yığma komandalar üçün təlim-məşq toplanışlarının təşkili üçün federasiyalarla əməkdaşlıq istiqamətində müvafiq tövsiyələr verib.

## Bakı birinciliyində 157 gimnast iştirak edəcək

Gimnastika növünün ən zərif nümayəndələri martda keçirilən Azərbaycan birinciliyindən sonra daha bir yerli yarışda, mayın 3-4-də 27-ci Bakı birinciliyində qüvvələrini sınayacaqlar.

Milli Gimnastika Arenasında keçiriləcək yarışda 9 klubdan ümumilikdə 157 bədii gimnast birincilik uğrunda mübarizə aparacaq.

Yarışda idmançılar fərdi və qrup hərəkətləri proqramında çıxış edəcəklər.

Birincilikdə gimnastlar fərdi çoxnövçülükdə və qrup hərəkətləri proqramında öz aralarında qalibləri müəyyənləşdirəcəklər.

Qeyd edək ki, Milli Gimnastika Arenasının qapıları Bakı birinciliyində də tamaşaçıların üzünə açıq olacaq. Azərbaycan Gimnastika Federasiyası tərəfindən keçirilən son üç yarışda olduğu kimi, gimnastikasevərlər paytaxt birinciliyində də həyəcanlı mübarizəni canlı izləmək imkanı əldə edəcəklər.

Yarışlarda tamaşaçı qismində iştirak edəcək şəxslər etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatına və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədə, COVID-19-a qarşı peyvənd əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatına (yaşı 18-dən aşağı olan şəxslər istisna olmaqla) malik olmalıdırlar.

## Gimnastlarımız Daşkənddə yarışıblar

Özbəkistanın paytaxtı Daşkənddə bədii gimnastika üzrə dünya kuboku yarışları keçirilib. Yarışda ölkəmizi fərdi proqramda Alina Gözəlova və İlona Zeynalova, qrup hərəkətləri proqramında isə Səkinə İbrahimbəyli, Fidan Yusifzadə, Leyla Əliyeva, Zəhra Paşazadə, Nigar Xankişiyeva, Nərgiz Ramazanovadan ibarət Azərbaycan millisinin ikinci heyəti təmsil edib. Komandamızın üzvlərindən İlona Zeynalova halqa ilə hərəkətlərdə finala adlayaraq 8-ci pillədə qərarlaşıb.

Qrup hərəkətləri komandamız isə həlledici mərhələdə 2 top və 3 lentlə hərəkətlərin icrasında dördüncü olub.

## Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın üzvləri "Gənclər paytaxtı"nda

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın üzvləri Azərbaycanın 2022-ci il üçün "Gənclər paytaxtı" olan Tovuz şəhərində bir qrup fəal gənc və idmançılarla görüş keçiriblər.



İki gün davam edən görüşün ilk günü İctimai Şuranın üzvləri Heydər Əliyev Mərkəzində 30-a yaxın idmançı və fəal gənclərlə görüşüb, onların qarşılaşdığı problemlər, təkliflər və iradlar, həmçinin qeyd edilən məsələlərin həlli istiqamətində müzakirələr aparılıb.

Görüşün ikinci günü Tovuz rayon Gənclər Evində gənclər və idmançılarla keçirilib. Daha sonra isə Şura üzvləri Tovuz Olimpiya İdman Kompleksi ilə tanış olublar. Kompleksin şəraiti, yaradılan imkanlar və çətinliklər barədə geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, fevralın 2-də keçirilən Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Forumda Tovuz şəhəri 2022-ci il üçün ölkəmizin "Gənclər paytaxtı" elan edilib.

## Karateçilərimiz Premyer Liqada 2 gümüş medal qazandılar

Azərbaycan karateçiləri Portuqaliyanın Matozinyuş şəhərində keçirilən Karate1 Premyer Liqa turnirində iştirak ediblər. Komandamız yarışı iki medalla başa vurub.

Yığmamıza medalları 68 kq-da çıxış edən qadın idmançımız İrina Zaretska və 75 kq-da yer alan Fərid Ağayev qazandırıb. Hər iki idmançımız finalda italiya idmançılarına məğlub olaraq gümüş medala sahib çıxıblar.

Həlledici qarşılaşmalarda İ.Zaretska Silvia Semeraroya, F.Ağayev isə Daniele Da Vivoya məğlub olub.

Qeyd edək ki, Azərbaycanın digər 2 təmsilçisi Tural Ağalarzadə (67 kq) və Asiman Qurbanlı (+84 kq) isə bürünc medal qarşılaşmalarında məğlub olublar.

# Boksçularımız Avropa birinciliyindən 2 medalla qayıtdılar

Bolqarıstanın paytaxtı Sofiyada gənc boksçular arasında Avropa birinciliyi keçirilib. 40 ölkədən 400-dən çox boksçunun iştirak etdiyi qitə birinciliyində Azərbaycan yığması da mübarizə aparıb. Komandamız yarışı 1 qızıl və 1 bürünc medalla başa vurub. Yığmamıza qızıl medalı Kənan Babayev qazandırıb. 48 kq çəki dərəcəsində mübarizə aparan boksçumuz çempionluq uğrunda mübarizədə əvvəlcə türkiyəli Telet Yağlı, gürcüstanlı Oruc Əhmədov və irlandiyalı Tedi Coysu məğlub edərək finala yüksəlib. O, həlledici döyüşdə polşalı Nikolas Marsel Pavlik



ilə qarşılaşıb. Uğurlu seriyasını davam etdirən Kənan Babayev bu qarşılaşmadan da qalib ayrılıb - 5:0. Bununla da boksçumuz Avropa çempionu adına sahib çıxıb.

Bürünc medalı isə komandamızın aktivinə Amin Məmmədzadə (51 kq) yazdırıb. 1/8 finalda irlandiyalı, 1/4 finalda isə ermənistanlı rəqibinə qalib gələn Azərbaycan çempionu üçüncü qarşılaşmasında Gürcüstan idmançısı ilə üz-üzə gəlib. Görüş rəqibin qələbəsi ilə yekunlaşıb. Nəticədə, A.Məmmədzadə Avropa birinciliyini bürünc medalla başa vurub.

* * *

Azərbaycan Boks Federasiyasının (ABF) prezidenti Sahil Babayev hakimlərlə görüşüb. Görüşdə hakimlərin hazırkı durumu, ölkəmizdə gənc hakimlərin yetişdirilməsi və bir sıra vacib məsələlər müzakirə edilib. Sahil Babayev əsas hədəfin üç ulduza sahib hakimlərimizin sayının artırılması və yeni beynəlxalq dərəcəli hakimlərin yetişməsi olduğunu bildirib. Vurğulanıb ki, bu idman növünün inkişafı və ölkədə daha kütləviləşməsi işinə boksçular və məşqçilərlə yanaşı, hakimlər də dəstək verməlidirlər. Bununla bağlı onların işləri təkmilləşdirilməli, qərarları obyektiv və ədalətli olmalıdır.

Federasiya rəhbəri ABF-nin yeni strukturunda hakimlər komitəsinin formalaşdırılması üçün tapşırıqlarını da verib. O qeyd edib ki, ədalət təmsilçilərinin təcrübəsinin artırılması üçün seminarlar təşkil olunacaq, onların beynəlxalq arenalarda ölkəmizi layiqincə təmsil etməsi məqsədilə lazımi işlər görüləcək.

Hakimlər təcrübələrinin artırılması, gənc nəslin yetişdirilməsi, bölgələrdə referiliyin inkişaf yolları, xanımların bu sahəyə cəlb olunması, həmçinin seminarların keçirilməsi üçün fikir mübadiləsi aparıblar.



# Bölgələrdə istedadlı atletlərin təyin olunması layihəsinə start verilib

Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Proqramının dəstəyi ilə Milli Olimpiya Komitəsi və Azərbaycan Atletika Federasiyası istedadlı atletlərin təyin olunması layihəsinə start verib. Layihə çərçivəsində xüsusi ekspert qrupunun beş müxtəlif rayona səfəri planlaşdırılıb. İsmayıllı rayon 3 saylı məktəb-liseydə atletika üzrə üç müxtəlif növdə (30 metrəyə qaçış, top atma və uzunluğa tullanma) uşaqların bacarıqları sınaqdan keçirilib.

Əlli uşaq (25 qız, 25 oğlan) arasında keçirilən yarışda ümumi nəticələr üzrə üç növün cəminə görə 10 qız və 10 oğlan, həmçinin hər növ üzrə ayrı-ayrılıqda qalib və mükafatçılar müəyyən olunub.

İştirakçılar sertifikatlarla təltif olunub və qaliblər mükafatlandırılıb.

Sonra ekspert qrupunun üzvləri İsmayıllı Rayon Olimpiya İdman Kompleksini ziyarət edərək rayonda atletika idman növü ilə məşğul olan uşaqların məşq prosesi ilə yaxından tanış olublar.

# İşğaldan azad olunan torpaqlarımızda ilk idman yarışı keçiriləcək

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası işğaldan azad olunan torpaqlarımızda ilk beynəlxalq idman yarışı təşkil edəcək.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilən "Prezident kuboku" reaqatasının ilk gününün yarışları mayın 6-da Tərtər rayonunun Suqovuşan qəsəbəsində keçiriləcək.

Növbəti gün - mayın 7-də isə yarış Mingəçevirdə davam edəcək.




# Cüdo yığmamızın keçmiş üzvü barədə bədii-sənədli film çəkilib

Azərbaycan millisinin keçmiş cüdoçusu və qadınlardan ibarət yığma komandanın məşqçisi Kifayət Qasımova haqqında bədii-sənədli film çəkilib. "After&Before" adlanan ekran işində idmançının portreti tamaşaçılara təqdim olunur.

Filmin ana xəttini qəhrəmanın hələ uşaq ikən məcburi köçkün həyatı yaşamasına rəğmən, göstərdiyi əzmkarlıq və Azərbaycan cüdosunun parlaq simasına çevrilməsi təşkil edir.

Ekran işindəki ayrı-ayrı fikirlərdən də görünür ki, olduqca sakit təbiətli Kifayətin daxilindəki coşğu və güc tatamidə olarkən, özünü qeyri-ixtiyari olaraq biruzə verir. İngilis dilində subtitrlərlə müşayiət olunacaq filmin yaxın günlərdə geniş təqdimatı keçiriləcək.

Sənədli filmin yay mövsümündə geniş auditoriyaya təqdim olunması planlaşdırılır.

Müasir kinematoqrafiya standartlarına uyğun işlənilən ekran əsəri Beynəlxalq Cüdo Federasiyasına və İdman filmləri üzrə beynəlxalq müsabiqəyə göndəriləcək.

# Ölkə kubokunda beşinci mərhələ yekunlaşdı

Şose velosipedi üzrə Azərbaycan kuboku yarışında beşinci mərhələyə yekun vurulub. Hərbi Qənimətlər Parkının önündə keçirilən turnirdə iştirakçılar kriterium ötüşməsində mübarizə aparıblar. Reqlamentə görə 3 kateqoriyada təşkil olunan yarışda 17 yaşadək oğlanlar və qızlar, həmçinin gənclər və U23/elit yaş kateqoriyası üzrə velosipedçilər arasında qaliblər müəyyənləşib.

Qızlar arasında yarışın nəticəsinə əsasən, Viktoriya Sidorenko aralıq finişlərində hamıdan çox xal toplamaqla fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Radha Şabanova ikinci, Lalə Abdurahmanova isə üçüncü olub. On yeddi yaşadək oğlanlar arasında Tural İsrafilov bütün rəqiblərini geridə qoyub. Ravi Rzayev və Burhan Abdullayev isə 2-3-cü yerləri bölüşüblər.

Gənclər, U23/elit yaş kateqoriyasında çıxış edən velosipedçilərin mübarizəsində isə Azərbaycanın elit yığma komandasının və Türkiyənin "Sakarya BB Pro Team" kontinental komandasının velosipedçisi Elçin Əsədov hamıdan güclü olub. Musa Mikayılzadə və Nəcəf Bağırov isə, müvafiq olaraq gümüş və bürünc medallara layiq görülüblər.

Sonda qaliblər mükafatlandırılıblar.



# Paracüdoçularımız Qran-Pri yarışını 2 medalla başa vurdular

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) cüdo üzrə yığma komandası Antalyada keçirilən Qran-Pri yarışını 2 gümüş medalla başa vurub. Komandamıza gümüş medalları Namiq Abaslı (73 kq) və Xatirə İsmiyeva (+70 kq) qazandırıb.

Qeyd edək ki, Azərbaycanın 9 cüdoçusu Qran-pri yarışına buraxılmayıb. Bu, yarış öncəsi beynəlxalq hakimlərin göz tibbi təsnifatları nəticəsində müəyyənləşib.

Abdulla İsmayılov, Əlican İsmayılzadə, Bayram Mustafayev, Zakir Mislimov, Şəhanə Hacıyeva və Dürsədəf Kərimovanın tibbi təsnifatları tam bitmədiyindən, növbəti yarışlarda onlar üçün yenidən təsnifat olacaq.

Orxan Qarayev, Hüseyn Rəhimli və Xanım Hüseynovanın isə təsnifatdan keçmələri üçün həkimlər əlavə sənədlər istəyiblər.

Qeyd edək ki, Paris-2024 XVII Yay Paralimpiya Oyunlarına qədər bir neçə dəfə təşkil edilən tibbi təsnifatlar Oyunlarda tibbi göstəricilərinə görə iştirak edəcək idmaçıları müəyyənləşdirəcək. Bu qayda bütün paralimpiya idman növlərinə aid edilir.



# Həndbol üzrə ölkə çempionatının qalibləri müəyyənləşdi

Həndbol üzrə ölkə çempionatında qadınlardan ibarət komandaların yarışına yekun vurulub.

Çempionatın əsas favoriti sayılan "Azəryol" son turda da azarkeşlərini inamlı qələbə ilə sevindirib. "İdman Akademiyası" ilə oyunun ilk hissəsindən təşəbbüsə yiyələnən "Azəryol" görüşü 42:19 hesabı ilə başa vuraraq növbəti çempionluğu rəsmiləşdirib.

Son turadək qızıl medallara iddialı olan "Qarabağ" komandası "Azərsu" ilə oyunda öz üzərinə düşən vəzifənin öhdəsindən gəlsə də, 33:20 hesablı qələbə ilə yalnız ikinci yerlə kifayətlənməli olub. İki xala malik "İdman Akademiyası" ilə "Azərsu" vurulan və buraxılan topların fərqinə əsasən müvafiq olaraq sonrakı yerləri bölüşüblər.

Kişilərdən ibarət komandaların yarışında da qızıl medalların sahibi müəyyənləşib. Doqquzuncu turda U-18 komandasına 31:24 hesabı ilə qalib gələn "Bakı" son oyunların nəticəsindən asılı olmayaraq azarkeşlərinə çempionluq sevinci yaşadıb. Bu tura qədər çempionluq imkanlarını qoruyan "Təhsil" U-16 üzərindəki 26:25 hesablı qələbə ilə yalnız gümüş medallarla kifayətlənməli olacaq.

"Məhsul" - "Gənclər Birliyi" görüşünü 31:25 hesablı qələbə ilə başa vuran nominal ev sahibi aktivinə 7-ci xalı yazdırıb.

# Formula 1

## Jurnalistlər üçün media-tur keçirilib



Bakı Şəhər Halqası Əməliyyat Şirkəti Formula 1 Azərbaycan Qran-Prisi ilə əlaqədar aprelin 23-də media nümayəndələri üçün təlim təşkil edib. Bakı Marşal Klubunun iştirakı ilə təşkil olunan təlimin məqsədi yerli media nümayəndələrini Formula 1 yarışlarının ümumi qaydaları barədə nəzəri və praktiki cəhətdən məlumatlandırmaqdır.

Avropa Oyunları Parkında yerləşən Bakı Marşal Mərkəzində təşkil olunmuş təlim nəzəri, praktiki və əyləncə hissələrindən ibarət olub. Nəzəri hissədə jurnalistlərə peşəkar marşallar tərəfindən Formula 1 bolidləri, onların texniki xüsusiyyətləri, yarışın idarə olunması prosesi və yarış zamanı digər maraqlı məqamlar barədə məlumat verilib. Təlimin sonunda suallar cavablandırılıb.

Praktiki hissədə jurnalistlərə yarışın idarə olunması və qaydaların necə tətbiq olunduğu nümayiş edilib.

Sonda Azərbaycan Avtomobil Federasiyasının drift və volkikar yarış maşınlarından ibarət şou və mini yarış simulyasiyaları nümayiş etdirilib, lüks maşınlar sərgilənib.

Qeyd edək ki, növbəti Formula 1 Azərbaycan Qran Prisi cari il iyunun 10-12-də keçiriləcək. Mövsümün sayca səkkizinci yarışı olan Azərbaycan Qran-Prisi Monako, Mayami, Sinqapur kimi nüfuzlu şəhər yarışları sırasında yer alır.

* * *

Bu il Bakıda keçiriləcək Formula 1 üzrə Azərbaycan Qran-prisinin şüarı müəyyənləşib. Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən verilən məlumata görə, sayca altıncı olacaq yarışın şüarı "F1 qayıdır: trekə və tribunaya!" adlanır. Bundan əlavə, BŞH mövsümün ən parlaq vizuallarını təqdim edib. İlk dəfə onlar Azərbaycanın üç rəngli bayrağının rəngləri ilə simvolizə olunub.

# Duatlonçular Nərəkənddə yarışdılar

Pirallahı adasında yerləşən Nərəkənd parkının ərazisində "IronWind duatlon" turniri təşkil olunub. İdmançılar ardıcıl olaraq, 5 kilometr qaçış, 20 kilometr velosiped və yenidən 2,5 kilometr qaçış məsafəsi qət ediblər.

Kişilər arasında Dinçar Yılmaz yarışın qalibi olub. Teymur Fərəcov turniri ikinci, Renat Baxışov isə üçüncü pillədə başa vurublar. Qadınların mübarizəsində isə ilk üç yeri müvafiq olaraq, Rəbiyyə Orucova, Marina Belan və Ayan Nəcəf tutublar.



# Şamaxı şəhər stadionunda uşaq futbolunun inkişafı üçün hərtərəfli şərait yaradılıb

***Aprelin 21-də AFFA-nın təşkilatçılığı ilə KİV nümayəndələri üçün Şamaxı şəhər stadionuna media-tur təşkil olundu. Futbol arenası AFFA-nın son dövrlərdə həyata keçirdiyi ən böyük infrastruktur layihəsi olduğu üçün tədbir qurumun 30 illik yubileyinə həsr olunmuşdu. Media-tur zamanı jurnalistlər stadionun ərazisində yaradılmış infrastrukturla tanış oldular. Tur zamanı AFFA-nın baş katibinin müavini Kamran Vəliyev jurnalistlərə arenada yaradılmış şərait barədə məlumat verdi. O, 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə stadionun açılış mərasiminin keçirildiyini xatırlatdı.***

## “Stadionun örtüyü yeni nəsil ot örtüklərindəndir”

“2200 azarkeş tutumuna malik olan Şamaxı şəhər stadionu UEFA-nın ikinci kateqoriyalı sertifikatına malikdir. Hazırda “Şamaxı” futbol klubu ev oyunlarını burada keçirir. Stadionun ot örtüyü sünidir. Amma örtük FIFA-nın ən yüksək sertifikatını alıb. Stadionun örtüyü yeni nəsil ot örtüklərindəndir və tam oturuşması üçün bir az zamana ehtiyac var. Arena həmçinin UEFA-nın II kateqoriyasına uyğun gəlir. Burada müəyyən beynəlxalq oyunların keçirilməsi üçün də şərait var. Belə ki, komandalarımız avrokubokların birinci və ikinci mərhələlərinin oyunlarını bu arenada keçirə bilər. Həmçinin U-21 və aşağı yaş kateqoriyalardan ibarət komandaların matçlarının da burada təşkil olunması mümkündür. Əsas yığmanın ev oyunları üçün isə dördüncü, bəzi hallarda isə istisna olaraq üçüncü kateqoriya tələb olunur. Bura isə qeyd etdiyim kimi, ikinci kateqoriyalı stadiondur”, - deyə Kamran Vəliyev bildirdi.

AFFA-nın rəsmisi həmçinin jurnalistlərin suallarını da cavablandırdı. K.Vəliyev ona ünvanlanan arenada işıqlandırmanın nəzərdə tutulmadığı ilə bağlı suala belə cavab verdi: “Burada əvvəldən qalan projektor dirəkləri var idi. Bu da ərazinin işıqlandırılması üçün istifadə olunur. Bildiyiniz kimi, futbol stadionlarında dörd tərəfdən işıqlandırma olmalıdır. Hazırda isə bu məsələ mövcud inşaat işlərində planlaşdırılmayıb. Gələcəkdə stadionun işıqlandırılması mümkün ola bilər. Hər şey maliyyədən asılıdır”.

Kamran Vəliyev Şamaxı şəhər stadionunda tribunaların sayının artırılması məsələsinə də aydınlıq gətirdi. O, hazırda stadionun qapı arxalarına tamaşaçı tutumu üçün tribunaların inşasının nəzərdə tutulmadığını dedi: “Qapı arxalarında boş yerlər var ki, burada gələcəkdə tribuna inşa etmək mümkündür. Amma bu, uzunmüddətli gələcəyin planlarına daxildir”.

Qeyd edək ki, stadionun inşası üçün maliyyə vəsaitinin 87 faizi UEFA, 13 faizi isə AFFA tərəfindən təmin olunub. Stadionun ərazisindəki idman kompleksində güləş və fitnes zalı inşa edilib. Bundan əlavə, stadionun ərazisində süni örtüklü iki mini meydança yaradılıb ki, bu meydançaların da 300 nəfər azarkeş tutumuna malik tribunası var.

Daha sonra stadionun ərazisində yerləşən idman kompleksindəki güləş zalı, həmçinin fitnes zalı, uşaqlar üçün mini meydança, soyunub-geyinmə otağı, həkim otağı və şərhçi otağı ilə tanış olduq.

Burada jurnalistlərə məlumat verildi ki, arenada yerləşən güləş zalı Azərbaycan Güləş Federasiyasının region üzrə nümayəndəliyinin ixtiyarına verilə bilər. Bundan başqa zalda ağırlıqqaldırma idman növü üzrə məşqlərin də keçirilməsi üçün şərait var. Qeyd olundu ki, zalla həm Ağır Atletika, həm də Güləş Federasiyasının nümayəndələri maraqlanıblar. Hansı federasiyadan müsbət təklif gələrsə, zala həmin idman növünə aid inventarlar quraşdırılacaq.

Stadion turunun sonunda xatirə şəkli çəkdirildi.











## “Əsas məqsədimiz futbola marağı artırmaqdır”

Jurnalistlər media-tur zamanı daha sonra Şamaxı Futbol Məktəbinin aşağı yaş qrupundan ibarət komandasının məşq prosesini izlədilər.

Burada Şamaxı futbol məktəbinin əlaqələndiricisi, veteran oyunçu Vəli Qasımov məktəb barədə jurnalistlərə məlumat verdi. O, jurnalistlərə açıqlamasında Şamaxıda futbola böyük marağın olduğunu bildirdi: “Üç aydan çoxdur ki, Şamaxıdayam. Hazırda 4 məşqçi və 1 inzibatçımız var. Məşqçilərin hamısı yerli mütəxəssisdir, D kateqoriyaları var. Gələcəkdə daha yüksək kateqoriya almaq üçün təlimlərə davam edəcəklər. Burada ən populyar idman növü güləş olsa da, son vaxtlar futbola da maraq artıb. Belə gedişlə gələcəkdə buradan 100 faiz futbolçu da çıxacaq. Hər məşqə 5-6 yeni uşaq gəlir. Artıq 150-dən çox uşaq burada futbolun sirlərinə yiyələnir. Burada 5 yaşından 13 yaşınadək uşaqlar var. Hələlik onlar yaş qruplarına bölünməyiblər. Bunu gələcəkdə edəcəyik. Çətin də olsa işlərimizi davam etdiririk. Hazırda futbola marağın artırılması üçün tədbirlər görülür və bunun da nəticəsində məşqlərə çoxlu uşaq gəlir. Əsas məqsədimiz futbola marağı artırmaqdır. Hər kəs gəlib oyunlara baxmaq istəyir. Əhali futbolu çox sevir”.

V.Qasımov yeni işinə həvəslə yanaşdığını, uşaq futbolunun inkişafı üçün səylə çalışdığını bildirdi: “Futbolu sevmək lazımdır. Mən uşaqlıqdan bu idman növünü çox sevmişəm. Yeni işimdə bir az fərqli məqamlar var. Bununla belə işimə həvəslə yanaşıram. Amma Azərbaycanda uşaq futbolu ilə bağlı böyük problemlər var. Bu, bölgələrə də aiddir. Mən də uşaq futbolunun inkişafını və gələcəkdə yaxşı futbolçuların yetişməsini istəyirəm. Bunun üçün bütün gücümü səfərbər edəcəyəm. Seleksiya işlərimizi hələlik Şamaxıda məktəblər arasında aparırıq. Hətta bəzi yaş qruplarında məktəblər arasında turnir keçirir və belə yarışlarda fərqlənən uşaqları məşqlərə dəvət edirik. Çalışacağıq ki, gələcəkdə seleksiya işlərini yaxın bölgələrdə də davam etdirək”.

## “Millətlər Liqasında qarşıya qoyulan məqsəd qrup qalibi olmaqdır”

Günün ikinci yarısında isə “Şamaxı Palas” hotelində AFFA-nın yeni baş katibi Sərxan Hacıyevin iştirakı ilə dəyirmi masa keçirildi. Dəyirmi masada jurnalistlərin suallarını cavablandıran S.Hacıyev bir sıra məqamlara toxundu.

Əvvəlcə özü haqda məlumat verən AFFA-nın baş katibi gənc yaşlarında 6 il şahmatla, 2 il isə uşaq-gənclər yarışlarında futbol hakimliyi ilə məşğul olduğunu diqqətə çatdırdı. 2009-cu ildən AFFA-da Beynəlxalq əlaqələr şöbəsində çalışmağa başladığını deyən Sərxan Hacıyev 2022-ci il martın 17-dən isə AFFA-nın baş katibi təyin olunduğunu qeyd etdi.

Daha sonra jurnalistlərlə dəyirmi masa ətrafında keçirilən görüşün əsas məqsədinin Şamaxı şəhərindəki stadionla tanışlıq olduğunu deyən baş katib stadionun UEFA-nın tələbi ilə tikildiyini bildirdi. O, stadionun inşası üçün çəkilən xərclərin böyük bir qisminin isə ali futbol qurumu tərəfindən ödənildiyini bildirdi.

Daha sonra sələfi Elxan Məmmədovun FIFA-nın Avropa Milli Assosiasiyaları üzrə direktoru vəzifəsinə təyin olunduğunu deyən Sərxan Hacıyev onun Azərbaycan futbolunun inkişafına da köməklik göstərəcəyinə inandığını qeyd etdi. “Onun yeni işi Fransa və FIFA ilə bağlı olacaq. O, mayın 1-dən Fransada fəaliyyətə başlamalıdır. Həmin departament əvvəl FIFA-nın baş ofisində fəaliyyət göstərirdi. Elxan Məmmədov ancaq FIFA-nın işçisi olacaq və AFFA-da ictimai əsaslarla fəaliyyətini davam etdirəcək. Digər məsələlər isə tamamilə baş katibin səlahiyyətinə keçəcək”, - deyə S.Hacıyev bildirdi.

O, jurnalistlərin sallarını cavablandıran zaman qarşısına müəyyən məqsədlərin qoyulduğunu diqqətə çatdırdı: “Əsas məqsəd futbolun, futzalın, çimərlik futbolunun inkişafı strategiyasını davam etdirməkdir. Gündəmdə VAR sisteminin tətbiqi məsələsi də var. Planımız bunu fevralda tətbiq etmək idi, lakin alınmadı. Bu işi sona qədər mütləq çatdırmalıyıq. Hazırda son elementlər gedir. VAR sistemi yoxlama görüşlərində sınaqdan keçirildi. Normalda VAR sisteminin ölkələrdə işə salma prosesi var. Bəzi ölkələrdə il yarım vaxt lazım olur, bəzi ölkələrdə isə bu iki il çəkir. Əsas qayda tətbiqdən əvvəl 28 oyunun keçirilməsidir. Plan belədir ki, oyunlar əsasən U-17 və U-19-lar arasında keçirilsin. Əsas hədəf odur ki, artıq 28-ci matçda heç bir problem olmasın”.

Sərxan Hacıyev daha sonra bölgələrdə futbolun inkişafı üçün görüləcək planla barədə danışdı. Əsas məqsədlərimizdən biri də regionlarda futbolu inkişaf etdirməyin vacibliyidir. Biz Region Liqası matçlarını da izləyirik. Oradadakı ab-havadan da görünür ki, azarkeş amili böyük rol oynayır. Müəyyən layihələr var. 8 komandanın 10-a artırılması bu layihələrdən biridir. Gələcəkdə regionla bağlı başqa layihələrin olması ehtimalı da var. Bu gün üçün əsas məqsəd 2 klubun Premyer Liqaya gəlməsidir. Ümumi məlumata əsasən görünən odur ki, bunlar “Turan Tovuz” və “Kəpəz” olacaq. Hazırda sənədlərin verilməsinə əsasən görünən mənzərə budur. Mayın ortalarında Lisenziyalaşdırma Komissiyası yığılacaq. Orada məlum olacaq ki, bu iki klub Premyer Liqaya hazırdır, ya yox”.

AFFA-nın yeni baş katibi uşaq futbolunun inkişafının da əsas prioritetlərdən biri olduğunu, bunun üçün müəyyən layihələrin həyata keçirildiyini diqqətə çatdırdı. “Əsas məsələ liqaların davamiyyətinin təmin olunmasıdır. Liqa olmasa, bu, mümkün deyil. Hazırda davamiyyət normal qaydada aparılır. Bu, bir az texniki sahəyə aiddir. Həmçinin lisenziyalaşdırılma prosesində belə bir məsələ var ki, yüksək liqada oynamaq istəyən klubların mütləq aşağı yaş qrupundan ibarət komandaları olmalıdır. Bu kriteriya heç bir halda dəyişdirilə bilməz. Hansısa yüngülləşdirmə olsa, bəzi komandalar aşağı yaş qrupu komandalarını ləğv edə bilər.

Sərxan Hacıyev dəyirmi masada həmçinin AFFA-da icraçı vitse-prezident vəzifəsinin ləğv olunacağını da qeyd etdi. Baş katib bildirdi ki, bu məsələyə İcraiyyə Komitəsinin qarşıdakı iclasında baxılacaq. Hazırda AFFA-nın icraçı vitse-prezidenti vəzifəsini Elxan Məmmədov yerinə yetirir.

S.Hacıyev jurnalistərin suallarını cavablandırarkən milli komandanın baş məşqçisi Canni De Byazinin qarşısına qoyulan məqsədlər barədə danışdı. O, əsas məqsədin Millətlər Liqasının qrupunda birinci olmaqdan ibarət olduğunu dedi: “Futbola canı yanan hər kəs milli komandanın nəticəsinə baxanda təəssüflənir. Biz özümüz də bu məsələ ilə bağlı xoş hisslər keçirmirik. Son oyunlarda Malta və Latviya yığmalarına qarşı keçirilmiş matçlardakı məğlubiyyət yolverilməzdir. Bu, belə olmamalıdır. Düzdür, yoldaşlıq matçları idi. Baş məşqçi heyətdə müəyyən dəyişikliklər etmək istəyirdi. Canni De Byazi optimal heyəti müəyyənləşdirmək üçün yığmaya legionerlər dəvət etmişdi. Amma bu cür nəticələr qəbulolunmazdır. İnanırıq ki, De Byazi artıq beynində optimal heyəti qurub. UEFA Millətlər Liqasında başqa nəticələrə ümid edirik. Qarşıya qoyulan məqsəd də qrup qalibi olmaqdır. Başa düşürük ki, bu çətin görünür. Desək ki, Slovakiyanı məğlub edəcəyik, bu, bir az şişirdilmiş fikir olar. Qrupdakı ən çətin rəqibin də Slovakiya olduğunu başa düşürük”.

Beləliklə, Şamaxı şəhər stadionunda bir gün davam edən media-tur zamanı burada yaradılan şəraitlə tanış olduq. Məlum oldu ki, arenada yeniyetmə və gənclərin idmana marağının artmasında və xüsusilə də uşaq futbolunun inkişafı üçün hərtərəfli şərait yaradılıb. Stadionun ərazisində yerləşən güləş zalı isə bu rayonda çox sevilən güləşin inkişafı üçün bir təkan olacaq. İnanırıq ki, yaxın gələcəkdə bu arenadan və xüsusilə də Şamaxı futbol məktəbindən gələcəyin peşəkar idmançıları çıxacaq.

*Azər Əlizadə,*
*Bakı-Şamaxı-Bakı*

# Autizmli uşaqlar üçün silsilə yarışlar keçirilir

Azərbaycan Autizm Assosiasiyası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə təşkil olunacaq II Autizm Festivalı çərçivəsində velosiped yarışı keçirilib. Veloparkda təşkil olunan yarışda autizmli uşaqlar bacarıqlarını nümayiş etdiriblər. Üç yaş qrupu üzrə təşkil olunan turnirə 50-yə yaxın iştirakçı qatılıb. Yarışın yekun nəticələrinə görə, 6-9 yaş qrupunda Məhəmməd Əsgərov, 9-13 yaş qrupunda Polad Məmmədli, 13 yaşdan yuxarı idmançılar arasında isə Rza Bayramov qalib adına layiq görülüblər.




* * *

II Autizm Festivalı çərçivəsində növbəti yarış atletika idman növü üzrə keçirilib. Respublika Olimpiya Mərkəzində təşkil olunan yarışda 50-dən çox iştirakçı mübarizə aparıb. Yarış 3 yaş qrupu üzrə təşkil olunub. Turnirdə 6-9 yaş qrupunda Kamil Mirzəyev birinci yerə layiq görülüb. Furqan Əhmədzadə ikinci, Amin Şirinov isə üçüncü yeri tutub. 9-13 yaş qrupunda Məhəmməd Əsgərov birinci, Uğur Bağırov ikinci, Polad Məmmədli isə üçüncü olub. 13 yaşdan yuxarı uşaqlar arasında isə Hüseynəli Rəhimov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Rza Bayramov ikinci, Məhəmmədəli İsgəndərov isə üçüncü yerə sahib çıxıb.



Xatırladaq ki, aprelin 28-i Bakıda Gənclər və İdman Nazirliyinin dəstəyi ilə II Autizm Festivalı təşkil olunacaq. Festival çərçivəsində keçirilən tədbirlərin məqsədi autizm barədə cəmiyyəti məlumatlandırmaq, autizmin xəstəlik yox, fərqlilik olduğu mesajını insanlara ötürməkdir.

# Xüsusi Olimpiyaçılar futbol yarışlarında

Azərbaycan Xüsusi Olimpiya Komitəsinin təşkilatçılığı ilə oğlanlar arasında futbol yarışları keçirilib. Yarış “UNIFIED Sports” (inklüziv birləşmiş idman komandası) proqramına uyğun olaraq üç divizionda təşkil edilib.

Yekun nəticələrə görə, ən güclü divizionda Qaradağ rayonunun E.Mirzəyev adına sağlamlıq imkanları məhdud uşaqlar üçün 9 saylı xüsusi internat məktəbinin komandası birinci yeri tutub. Xəzər rayonunun valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2 saylı ümumi internat məktəbinin futbolçuları ikinci, sərbəst məşqçi Lyudmila Qasıyevanın komandası isə üçüncü yerlərə layiq görülüblər.



# Badmintonçuların ölkə birinciliyinə yekun vurulub

1 nömrəli peşə idman liseyində 2010-2011-ci illər təvəllüdlü badmintonçular arasında 5 kateqoriya üzrə Azərbaycan birinciliyi keçirilib. 80 idmançının yarışdığı ölkə çempionatında Bakı ilə yanaşı, Gəncə, Qusar və Siyəzəni təmsil edən badmintonçular iştirak edib.

Şəxsi yarışlarda Ayxan Kərimzadə və Leyla Camalzadə birinci olublar. Oğlanların qoşa yarışlarında A.Kərimzadə, Anar Hüseynov, qızlarda isə Nəzrin Mehrəlizadə və L.Camalzadə qızıl medal qazanıblar. Qarışıq qoşa yarışlarda isə A.Kərimzadə və L.Camalzadə birinci yerə layiq görülüblər.



Azərbaycan Badminton Federasiyası ilə Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən turnirin mükafatçıları diplom və medallarla təltif olunublar.

# Dopinq vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı mübarizəyə həsr olunmuş görüş

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) Daxili İşlər Nazirliyi (DİN) və Dövlət Gömrük Komitəsinin (DGK) əməkdaşları arasında dopinq vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı mübarizəyə həsr olunmuş növbəti işçi görüş keçirilib.

AMADA-dan verilən məlumata görə, Azərbaycanın da tərəfdaşı olduğu UNESCO-nun “İdmanda dopinqə qarşı mübarizə haqqında” Beynəlxalq Konvensiyasına əsasən, Milli Əlaqləndirici Mərkəz olan AMADA dopinq vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı əldə etdiyi məlumatları hüquq-mühafizə orqanları ilə bölüşüb. Belə ki, AMADA-nın apardığı araşdırmalar, daxil olan anonim və açıq məlumatlar və bu məlumatların təhlili dopinq vasitələrinin qanunsuz dövriyyəsi probleminin daha da aktuallaşdığını göstərir. Bütün bunları nəzərə alaraq AMADA tərəfindən hüquq-mühafizə orqanlarının əməkdaşları üçün dopinq vasitələrinin xüsusi ilə də steroidlərin qanunsuz dövriyyəsi, o cümlədən sosial şəbəkələrdə və idman zallarında qanunsuz satışının təşkili və digər məlumatları əks olunduğu təqdimat keçirilib.

“Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın icraçı qurumlarından olan AMADA idmanda narkotik maddələrin istifadəsi ilə bağlı əldə etdiyi məlumatları və apardığı araşdırmaların nəticələrini də hüquq-mühafizə orqanları ilə bölüşüb.



Görüşdə sözü gedən məsələlər ətrafında geniş müzakirələr və fikir mübadiləsi aparılıb. Bu istiqamətdə mövcud əməkdaşlığın genişləndirilməsinin və mübarizə tədbirlərinin daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.

AMADA, DİN və DGK problemin aktuallığını nəzərə alaraq dopinq vasitələrinin qanunsuz dövriyyəsinin qarşısının alınması üçün atılacaq birgə addımları müəyyənləşdiriblər.

# Velosiped idman növünə marağın artırılması məsələləri müzakirə edilib

Azərbaycan Velosiped Federasiyasının prezidenti Mədət Quliyev Respublika Olimpiya Ehtiyat Qüvvələri İxtisaslaşdırılmış Uşaq-Gənclər Velosiped Məktəbinin əməkdaşları ilə görüşüb. Görüşdə velosiped məktəbinin fəaliyyəti və inkişafı, idmançıların tibbi müayinədən vaxtında keçirilməsi, velosiped idman növünə marağın artırılması məsələləri müzakirə edilib.

M.Quliyev velosiped idmanında kütləviliyin təmin olunması və idmançıların hazırlıq prosesində səmərəliliyin artırılmasının vacibliyindən danışaraq aidiyyəti tapşırıqlarını verib.

# Kikboksinqçilər respublika çempionatında bir araya gələcəklər

İki illik fasilədən sonra kikboksinq üzrə respublika çempionatı keçiriləcək. Ölkə çempionatının Təşkilat Komitəsi müəyyənləşib. Belə ki, AKF-nin prezidenti Orxan Əliyev komitənin sədri, federasiyanın I vitse-prezidenti Ramal Aslanov, idarə heyətinin üzvləri - Eduard Məmmədov, Müşfiq Məmmədov, əsas millinin baş məşqçisi Elşən Abdulrəhimov, “full kontakt” üzrə yığma komandanın böyük məşqçisi Telman Məhərrəmov, yeniyetmə və gənclərdən ibarət millinin baş məşqçisi Hikmət Hacıyev, hakimlər kollegiyasının sədri Fəxrəddin Quliyev və onun müavinləri Aydın Ağabəyovla Anar Məmmədov üzv seçiliblər.

Onlar XXVI respublika çempionatında WAKO qaydalarının əsas götürülməsi və yarış reqlamentinin buna uyğun təşkili haqda müzakirə aparıblar. Qərara alınıb ki, bu yarışda kikboksinqin hansısa (“Lou kik”, “full kontakt”, “point faytinq”) növündə çıxış edib fərqlənən idmançı, həmçinin İslam Həmrəylik Oyunlarında həmin növ üzrə mübarizə aparacaq.

Qeyd edək ki, ölkə çempionatı mayın 20-22-də “Sərhədçi” İdman Olimpiya Mərkəzində keçiriləcək. Bu yarışda fərqlənənlər Türkiyənin Konya şəhərində keçiriləcək V İslam Həmrəylik Oyunları üçün yığma komandanın heyətini müəyyənləşdirəcək.

# Qılıncoynadanlarımız beynəlxalq turnirdə fərqləndilər

Antalyada oğlanlar və qızlar arasında qılıncoynatma üzrə beynəlxalq turnir keçirilib. Azərbaycan Qılıncoynatma Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, Türkiyə, ABŞ, Gürcüstan və Qazaxıstan komandalarının iştirak etdiyi yarışda Azərbaycan idmançıları da güclərini sınayıblar. Turnirdə Təhsil Nazirliyinin 1 saylı idman liseyinin idmançılarından Mirnuray Abbasova (U-12) və Nəzrin Mehdiyeva (U-14) şpaqa üzrə birinci yeri tutaraq yarışın qızıl medalını qazanıblar.





# Azərbaycan birinciliyinin ən güclüləri müəyyənləşdi

Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman Sağlamlıq Mərkəzində sərbəst və yunan-Roma güləşi üzrə U-17 Azərbaycan birinciliyi keçirilib. Yeniyetmələrin ölkə birinciliyi COVİD-19 pandemiyası ilə əlaqədar olaraq, 3 illik fasilədən sonra təşkil olunub. Birinciliyin keçirilməsində əsas məqsəd güləşin təbliği, bu idman növündə kütləviliyə nail olmaq və qarşıdan gələn mühüm beynəlxalq yarışlar ərəfəsində müvafiq milli komandaların heyətinin yenidən formalaşdırılmasından ibarət olub.

Yarışın ilk günündə çəkisi 45 kq, 51 kq, 60 kq, 71 kq və 92 kq çəki dərəcələrində çıxış edən sərbəst güləşçilər mübarizə aparıblar. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Sadiq Hüseynov (45 kq), Elman Ağayev (51 kq), Musa Ağayev (60 kq), Ağanəzər Novruzov (71 kq) və Rəvan Musayev (92 kq) qızıl medal qazanıblar.

Yarışın ikinci günündə isə 48 kq, 55 kq, 65 kq, 80 kq və 110 kq çəki dərəcələrində yer alan sərbəst güləşçilər mübarizə aparıblar. Yarışda Vasif Bağırov (48 kq), Camal Abbasov (55 kq), İlyas İsayev (65 kq), Şəmistan Axundov (80 kq) və Azay İsmayılov (110 kq) qızıl medal qazanıblar.

Növbəti gün isə yunan-Roma güləşçiləri mübarizəyə qoşulublar. Əvvəlcə, 45 kq, 51 kq, 60 kq, 71 kq və 92 kq çəki dərəcələrində qaliblər müəyyənləşib. Birincilikdə Hüseyn Savadov (45 kq), Vədat Qasımlı (51 kq), Məhəmməd Qasımzadə (60 kq), Davud Məmmədov (71 kq) və Mikayıl İsmayılov (92 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Yarışın sonuncu günündə isə çəkisi 48 kq, 55 kq, 65 kq, 80 kq və 110 kq olan klassiklər xalça üzərinə çıxıblar. Gərgin mübarizə şəraitində keçən yarışda Elvin İbadov (48 kq), Tural Əhmədov (55 kq), Əli Əlizadə (65 kq), İsmayıl Rzayev (80 kq) və Məzahim Mərdanov (110 kq) Azərbaycan birinciliyinin qalibi adını qazanıblar.

Beynəlxalq və milli dərəcəli hakimlərimizin idarə etdiyi yarışın medalçıları U-17 yaş qrupu üzrə yığma komandaların heyətinə cəlb olunacaq.

Olimpiya İdman Komplekslərində

## Region idmançıları üçün təlim-məşq toplanışı keçirilir



Göygöl Olimpiya İdman Kompleksində regionlarda yaşayan 15 yaşadək cüdoçular üçün təlim-məşq toplanışı keçirilir. Təlim-məşqlər mayın 6-8-də keçiriləcək 15 yaşadək yeniyetmələr arasında Azərbaycan birinciliyinə hazırlıq məqsədi daşıyır.

Hazırlıq prosesində ölkəmizin müxtəlif rayon və şəhərlərindən olan klublar, cəmiyyətlər və idman təşkilatlarından 120-yə yaxın yeniyetmə cüdoçu iştirak edir.

Təlim-məşqlərin təşkilində əsas məqsəd region idmançıları arasında rəqabətin artırılması, kiçikyaşlı cüdoçularımızın gələcəkdə təcrübəli, peşəkar idmançı kimi yetişməsi, onların yerli və beynəlxalq yarışlarda uğurla təmsil olunmasıdır. Eyni zamanda, bu cür təlimlərin təşkili regionlarda cüdonun kütləviliyinin artırılmasına, gənclərin fiziki və mənəvi tərbiyəsinə töhfə verməkdən ibarətdir.

Hazırlıq prosesi aprelin 30-dək davam edəcək.

* * *

Göygöl rayonunda keçirilən kross qaçışı üzrə Azərbaycan çempionatına yekun vurulub. Çempionatda Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən ezam olunan Bakı yığma komandası ilə yanaşı, Azərbaycan Triatlon Federasiyası, Təhsil Respublika İdman Mərkəzi, Təhsil-1, Təhsil-5, Abşeron, Sumqayıt, Qobustan, Gəncə, Bərdə, Şəmkir, Balakən, Ağdaş, Naftalan, Gədəbəy, Qax, Tovuz və digər komandaları təmsil edən 300-ə yaxın idmançı mübarizə aparıb.

Ümumi komanda hesabında Bakı komandası ölkə çempionu adına layiq görülüb. Şəmkir komandası ikinci, Gəncə komandası isə üçüncü olub.

Şəxsi hesabda isə kişilər və oğlanlar arasında 10 kilometr məsafədə Elman Abışov (Bakı), 6 kilometr məsafədə İsgəndər Əsgərov (Gəncə), 3 kilometr məsafədə Murad Məmmədov (Qobustan), 2 kilometr məsafədə Elgün Vəliyev (Bərdə) qalib olublar. Qadınlar və qızlar arasında 6 kilometr məsafədə Anna Yusupova (Bakı), 4 kilometr məsafədə Aydan Alışova (Bakı), 2 kilometr məsafədə Aysu Abbasova (Naxçıvan), 1 kilometr məsafədə Emiliya İsgəndərova (Bakı) birinci yeri tutublar.

* * *

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin pouerliftinq idman növü üzrə milli komandası baş məşqçi İlqar İbişovun rəhbərliyi




ilə Qax Olimpiya İdman Kompleksində təlim-məşq toplantısında iştirak edir. Mayın 1-dək davam edəcək təlim-məşq toplantısı milli komandanın fiziki hazırlığının artırılması və növbəti yarışlara hazırlıq məqsədi daşıyır.

## *Vətən müharibəsi şəhidlərinin xatirəsinə boks yarışı keçirilib*

Aprelin 22-23-də Astara Olimpiya İdman Kompleksində 2006-2007-ci illər təvəllüdlü yeniyetmələr arasında boks üzrə açıq Astara rayon birinciliyi keçirilib.

Yarış YAP Astara rayon Təşkilatı, Astara UGİŞM, Astara Boks Mərkəzi, Astara Olimpiya idman Kompleksinin təşkilati dəstəyi ilə baş tutub.

Yarışda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Astara Rayon Gənclər İdman İdarəsinin rəis müavini İqrar Cəfərov tərəfindən Vətən müharibəsi şəhidləri Ruslan Əliyev və Sadiq Bağırzadə haqqında və yarış barədə məlumat verilib. O, gənc nəslin vətənpərvərlik tərbiyəsi, fiziki hazırlığı sahəsində idmanın müxtəlif növləri üzrə xatirə yarışlarının keçirilməsinin əhəmiyyətini qeyd edərək, əlaqədar təşkilatlara tədbirin həyata keçirilməsində göstərdikləri dəstəyə görə təşəkkürünü bildirib.

Tədbirin açılış mərasimində çıxış edən Astara Rayon İcra Hakimiyyətinin başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Firəngiz Sadıxova, Astara Rayon Gənclər və İdman İdarəsinin rəisi vəzifəsini icra edən Rufan Şirinov, YAP Astara rayon Təşkilatının sədri Həbib Cəfərov, Astara Rayon Təhsil Şöbəsinin müdiri Rəşad Həsənov, məşhur idmançı və məşqçi, Azərbaycan Respublikasının Əməkdar məşqçisi, beynəlxalq dərəcəli idman ustası, Astara Olimpiya İdman Kompleksinin direktoru Aslan Ağayev, Şəhid Ruslan Əliyevin şəxsi məşqçisi Ayaz Baxşıyev, Şəhid Ruslan Əliyevin qardaşı Əli Əliyev və digər qonaqlar çıxış ediblər. Çıxış edənlər müxtəlif idman növləri üzrə rayonda və respublikada təlim məşqlərin müntəzəm olaraq keçirildiyini, idmançıların beynəlxalq yarışlarda yüksək nəticələrə nail olduqlarını qeyd ediblər. Bildirilib ki, yarışın məqsədi Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan həmvətənlərimizin xatirəsinin yad edilməsi, yeniyetmə və gənclər arasında sağlam həyat tərzinin təbliği, idmançıların fiziki hazırlıq səviyyələrinin yüksəldilməsi, boks idman növünün kütləviliyinin artırılmasından ibarətdir.



Sonra yarışa start verilib. Yarışda Astara, Lənkaran, Masallı, Biləsuvar rayon komandalarını təmsil edən 2006-2007-ci illər təvəllüdlü 33 nəfər idmançı 11 çəki dərəcəsi üzrə mükafatlar uğrunda mübarizə aparıb.

Sonda müxtəlif çəki dərəcələrində ilk üç yeri tutan idmançılar Astara RGİİ-nin təsis etdiyi diplomlar, medallar və hədiyyələrlə təltif olunublar.

***İqrar Cəfərov,***
***Astara RGİİ-nin rəis müavini***

## Rayon məktəbliləri "Şahin" hərbi-idman oyunlarında

***Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Yasamal rayon orta ümumtəhsil məktəbliləri arasında "Şahin" hərbi-idman oyunu üzrə rayon birinciliyi keçirilib.***

Yasamal rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən birincilikdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra torpaqlarımızın bütövlüyü uğrunda həlak olmuş



şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib. Daha sonra çıxış üçün söz Yasamal rayon Gənclər və İdman İdarəsinin rəisi İlham Səfərova verilib. İlham Səfərov yarış iştirakçılarını salamlayaraq komandalara uğurlar arzulayıb. İlham Səfərov qeyd edib ki, yeniyetmə və gənclər arasında hərbi-vətənpərvərlik tərbiyəsi işinin təşkili, onlar arasında vətənpərvərlik tərbiyəsinin aşılanması, məktəbliləri hərbi-idman oyunlarına cəlb etməklə onların ordu sıralarında hərbi xidmətə hazırlanmasına kömək göstərmək gənclərlə iş sahəsində idarə qarşısında duran başlıca vəzifələrdən biridir. İlham Səfərov bildirib ki, 44 günlük Vətən müharibəsi xalqımızın, o cümlədən ordumuzun yüksək hərbi-vətənpərvərlik ruhunu bir daha nümayiş etdirdi və Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi altında torpaqlarımız işğaldan azad edildi, 30 illik yurd həsrətinə son qoyuldu.

Sonra "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Yasamal rayon təşkilatının sədri Bəhram Şeydayev çıxış edib. Bəhram Şeydayev iştirakçılara uğurlar arzulayıb və çıxışında bildirib ki, Azərbaycan ordusu indi regionun ən güclü ordusu olmaqla yüksək peşəkar əsgər və zabit heyətinə malikdir. O qeyd edib ki, Vətən müharibəsi Azərbaycan ordusunun döyüş qabiliyyətini bütün dünyaya nümayiş etdirdi, ordumuz şanlı qələbə qazandı.

Qarabağ müharibəsi qaziləri və digər rəsmi şəxslərin iştirak etdiyi təntənəli açılış mərasimi başa çatdıqdan sonra komandalar yarışın əsasnaməsinə müvafiq olaraq mərhələlər üzrə yarışa başlayıblar.

Birincilikdə rayon ərazisində fəaliyyət göstərən 19 tam orta ümumtəhsil məktəbin komandası öz qüvvəsini sınayıb. Yarışın yekun nəticəsinə görə birinci yerə 158 saylı tam orta məktəbin komandası layiq görülüb. 31 saylı tam orta məktəbin komandası ikinci, 175 saylı tam orta məktəbin komandası isə üçüncü yerə sahib çıxıb. Rayon mərhələsinin qalibi olmuş komanda Bakı şəhər zona birinciliyində rayonu təmsil etmək hüququ qazanıb.

## *Ömrünü idmana həsr edən veteran futbolçu*



Azərbaycanın veteran futbolçusu, həyatının çox hissəsini futbola həsr etmiş Fazil Əliyevin 71 yaşı tamam olur. 1951-ci il aprelin 25-də Ağcabədi rayonunun Hindarx kəndində anadan olan Fazil müəllimin keçdiyi ömür yolu kifayət qədər zəngindir. Futbolla məşğul olmağa orta məktəb illərində başlayan veteran futbolçu doğma komandasının heyətində İmişlidə keçirilən gənclərin Azərbaycan birinciliyində iştirak edib və gözəl oyunu ilə məşqçilərin diqqətini çəkib. İstedadlı futbolçu bir müddət sonra "Neftçi"nin əvəzedici komandasının idman şərəfini qoruyub. 1972-ci ildə Ağdamın "Qarabağ"ı, 2 il sonra isə "Şəmkir" klubunun heyətində "Qızıl sünbül" kubokuna sahib olub. Moskva, Kişinyov və Daşkənddə təşkil olunan yarışlarda dəfələrlə iştirak edib. Əldə etdiyi nəticələrə görə SSRİ idman ustası fəxri adına layiq görülüb.

Fazil Əliyev 1975-1978-ci illərdə Azərbaycan yığmasında oynayıb. Ağcabədinin "Aran" klubunun yaranmasında müstəsna xidmətləri olan Fazil müəllim burada baş məşqçi vəzifəsini yerinə yetirib. Bundan başqa, o, 2004-2007-ci illərdə Ağcabədinin "Ağ-göl" komandasına rəhbərlik edib. Təcrübəli mütəxəssis 2009-cu ildən 2017-ci ilə qədər AFFA-da hakim-inspektor vəzifəsində çalışıb. Hazırda təqaüddədir.

Veteran futbolçunu 71 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, cansağlığı və işlərində uğurlar arzulayırıq.

## "Çempionumuz" layihəsi çərçivəsində növbəti görüş

"Çempionumuz" sosial idman layihəsi çərçivəsində Masallı şəhər Heydər Əliyev Mərkəzində növbəti tədbir keçirilib. Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə keçirilən görüşün qonağı Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin boccia idman növü üzrə milli komandasının üzvü və kapitanı, ikiqat Azərbaycan çempionu, dəfələrlə beynəlxalq səviyyəli yarışların qalibi Bəhruz Mirzəyev olub. Tədbir iştirakçıları görüşdən əvvəl şəhərdəki Qəhrəmanlar Parkındakı "Şəhidlər" abidə-kompleksini ziyarət edib, Heydər Əliyev Mərkəzinə gəlibər. Mərkəzin foyesində ulu öndərin həyat və siyasi fəaliyyətindən bəhs edən fotostendlərə baxış keçirilib və dahi şəxsiyyətin xalqımız və dövlətçiliyimiz qarşısındakı tarixi xidmətləri barədə məlumat verilib. Tədbir ümummilli lider Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olan Vətən oğullarının xatirəsinin bir dəqiqəlik sükutla anılmaqla, Dövlət Himninin oxunması ilə başlayıb.

İdmançının mötəbər yarışlardakı qazandığı uğurlardan bəhs edən video-çarxın nümayişindən sonra Masallı Rayon Gənclər və İdman İdarəsinin rəisi Sabiq Cahangirov çıxış edib. O, ölkəmizdə bütün sahələrdə olduğu kimi, idmana da böyük diqqət və qayğı ilə yanaşıldığını vurğulayıb.

Tədbirdə çıxış edən Bəhruz Mirzəyev qarşıdakı məqsədləri barədə danışaraq əsas hədəfinin Paris-2024 XVII Yay Paralimpiya Oyunlarında uğurla iştirak edərək yüksək nəticə qazanmaq olduğunu bildirib.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Ultra-müasir futbol



Mobil İSMAYILOV

*(əvvəli qəzetmizini 13-cü sayında)*

## Komandanın ruhu, komandanın silahıdır

Klubun daxilində kollektiv mühit olmadıqda uğursuz nəticələr başlayır və komanda tezliklə böhranla üzləşir. Belə vəziyyət yarananda baş məşqçi də heç nə edə bilmir. Komandanın uğursuzluq zolağından çıxması üçün artıq rəhbərlik tədbirlər görməyə başlayır. İslahatlar aparılır, yenidən vahid kollektiv formalaşdırmaq lazım gəlir. Necə deyərlər, yeni qan lazım olur. Ona görə də komandanın rəhbərliyi və baş məşqçi bu cür böhran vəziyyətinin yaranmasına imkan verməməlidir. Beləliklə, futbolçular arasında qarşılıqlı anlaşma və bütövlükdə komandada əla kordinasiyaya nail olmaq olduqca mühüm şərtdir.

Üçüncüsü - komandaya uyğun gələn, münasib transferlər aparmaq lazımdır. Əlbəttə, futbolda transferlər labüddür. Amma baxır bu məsələlər necə həll edilir. Transferlər həmişə fayda verir? Bəzən külli miqdarda məbləğə alinan futbolçu az müddət keçdikdən sonra ehtiyatda qalır ki, bu da həm klubun transfer siyasətini doğrultmur , həm də komandanın büdcəsinə ziyan vurur. Ehtiyatda "çürüyən" futbolçular formadan düşürlər və nəticədə narazılıqlar yaranır. Futbolçuda baş qaldıran həvəssiz meydana çıxma meylləri, ruh düşgünlüyü daha təhlükəlidir. Əksər hallarda klublar belə



oyunçuları icarəyə verməli olurlar. Bəzən hansısa transfer azarkeşləri çaş-baş salır. Yəni azarkeş anlaya bilmir ki , çox da güclü , münasib olmayan, hətta adi futbolçu niyə komandaya gətirilib. Çox vaxt bunun səbəbi dəqiq bilinmir, yalnız ehtimallar mövcud olur. Bəzi hallarda da anlaşılmaz transferlər müəmmalı kommersiya sirlərinə çevrilir və kənardan başa düşülmür. Əslində isə belə transferlər klublararası əlaqələrin genişləndirilməsinə, reklam və biznes planlarına xidmət edir. Bəzən klub prezidentlərinin digər məqsədləri də olur. Klub rəhbərlərinin dostluq münasibətlərindən qaynaqlanan transferlərə də təsadüf edilir. İndi sirr deyildir ki, bəzi transfer məsələlərini klub prezidentləri öz aralarında həll edirlər və heç kimin də xəbəri olmur. Reallaşanda üzə çıxır, alınmayanda isə məlumat ya dəqiq olmur, ya da təhrif olunmuş formada yayılır. Bəzən yeni transferlər komandanın daxilindəki rəqabəti artırmaq üçün həyata keçirilir. Komandada rəqabətin olması normal haldır. Əslində həqiqət budur ki, bütün komanda üzvləri bir-birinə rəqibdir. Ümumiyyətlə, hər baxımdan yeni transferlər komandanı daha da zənginləşdirməli, çəki, reytinq nöqteyi-nəzərindən samballı etməlidir.

Ardıcıl transfer edilmiş ulduz futbolçuların super klublarda birgə, hətta yan-yana oynaması məsələsi həmişə aktual amil olaraq qalır. Fikrimcə , daim ulduzlardan ibarət güclü heyətə malik PSJ - nin ÇL-də uğur qazana bilməməsinin əsas səbəbi məhz bəlkə də bir qədər plansız şəkildə transfer edilmiş məşhur futbolçuların heyətə düzgün yerləşdirilməməsidir. Hansı xəttlərdə və mövqelərdə ulduzların yanbayan necə oynaması?! PSJ -də baş məşqçilər dəyişir, bu problem isə bir qayda olaraq uğurlu həllini tapmır. Məsələn, doymuş Neymar artıq ikinci mövsümdür ki, PSJ-də sanki həvəssiz görünür. Əksər mütəxəssislər qeyd edirlər ki, əvvəlcə onu başqa komandaya transfer edib sonra Messini almaq olardı. Bəzi mütəxəssislər isə ümumiyyətlə, Messinin transferinin yanlış addım olduğunu düşünürlər. Yeri gəlmişkən, mən də bu fikirdəyəm. Ən azından ona görə ki, PSJ - də hazırda dünya futbolunun bir nömrəsi Mbappe olduğu halda əfsanəvi vaxtları keçmiş, əslində şan-şöhrəti adı qalan Messiyə ehtiyac yox idi. Onların hər ikisinin azarkeşlər tərəfindən fitə basılması da təsadüfi deyildi. Ümumiyyətlə, transfer olunan ulduz futbolçunun həmin ərəfədə hansı formada olması və komandanın sisteminə uyğun gəlib-gəlməməsi nəzərə alınmalıdır. Burada artıq məşhur adlara uymaq yanlışlıqlara gətirib çıxarır.

Bəzi klublar internet saytlarında sorğular keçirirlər. Məqsəd azarkeşlərin hansı futbolçunun alınması barədə rəylərini öyrənməkdən ibarət olur. Sorğularda azarkeşlərin kimlərə üstünlük verməsini klubun rəhbərliyi nəzərə alır. Əlbəttə, hər bir halda transfer məsələləri nəhəng klubların " bosslarından" asılıdır. Təbii ki, burada komandaların maliyyə imkanları da nəzərə alınır. Bəzən komandada maliyyə böhranı baş verir. Buna görə də klubun təmsilçiləri güclü futbolçularını satışa çıxarmağa məcbur olurlar. Amma yenə də hər bir halda uğurlu, zəruri, yerinə düşən transferlər etmək lazımdır. Yeri gəlmişkən, yeni futbolçuların transfer qaydası adətən belə olur: Futbol menecerləri mütəmadi olaraq axtarışda olurlar və təkliflərini klubun prezidentinə, yaxud idman direktoruna bildirirlər. Bundan sonra transferin həyata keçirilməsi baş məşqçinin fikri də nəzərə alınmaqla klubun idarə heyətinin qərarı ilə başa çatır.

Modernləşmiş müasir futbolun əsas şərtlərindən biri də odur ki , karyerasını bitirmiş adlı-sanlı futbolçular, eləcə də bəzən məşqçilik "həvəsinə" düşən ulduzlar komandalara baş məşqçi postuna gətirilməməlidir. Məhz, belə halların nəticəsidir ki, son vaxtlar baş məşqçilərin komandalarda "ömrü" az olur. Və yaxud, bir də görürsən mövsüm ərzində bir komandada 2 dəfə, hətta bəzi hallarda 3 (!) dəfə məşqçi dəyişikliyi baş verir. Yəni "ildırım sürətli" məşqçi dəyişiklikləri adi hala çevrilib. Əvvəllər futbol dünyasında belə hallara təsadüf edilməzdi. Praktika göstərir ki, komandanın sükanı arxasına ən azı futbolun konstruksiyalarına



yaxşı bələd olan , ya da elə futbolun əsl konstruktoru gətirilməlidir.

Bu da - dördüncü. Superklublarda mühitin daha mürəkkəb və həssas olması ehtimalı xüsusən nəzərə alınmalıdır. Komanda ən azından azacıq büdrəyən kimi baxışlarda etiraz qığılcımları görünməyə başlayır. Bir də ki, baş məşqçi superklubların ruhuna uyğun olmalıdır. Məsələn, Valverde rəğbət bəslədiyim mütəxəssis olsa da, "Barselona"nın fəlsəfəsinə uyğun baş məşqçi deyildi. İndi heç bir komanda zirvədə rahat əyləşməsini təmin edə bilməz. Hərçənd ki, komandanın sadəcə ideal vəziyyətdə olduğu mövsüm də olur. Bir də görürsən məşhur komanda "qara zolağa" qədəm qoyur. Gözlənilməz məğlubiyyətlər və heç-heçələrdən sonra komanda ruhdan düşür və nəticədə uğursuz "seriyalar" prosesi başlayır. Belə hallarda da məşqçi təyinatlarında seçimlər nəzərə alınmalıdır.

Ultra-müasir futboldan danışarkən həmişə qüvvədə olan digər prinsipləri və amilləri də qeyd etmək yerinə düşər. Komandanın fiziki durumu onsuz da daim yüksək olmalıdır. Meydana əzmkar çıxmağın böyük əhəmiyyəti var. Standart vəziyyətlərdən sonra, qol imkanı yaranırsa, hökmən istifadə edilməlidir. Ümumi komanda təzyiqini , fərdi pressinqi də əlavə etmək olar. Klassik futbol dövründə də, indi də meydanda təkbaşına vuruşan hücumçular oyunun taleyini həll etməyi bacarıblar. İndi futbolçunun fərqli xüsusiyyəti bütün oyunboyu davamlı, sabit futbol oynamasıdır. Bütün xətlərdə yüksək səviyyəli oyunçulardan formalaşdırılan komanda daha güclü təsir bağışlayır. Müasir futbolda meydanın hər yerində mübarizə getməlidir. Özü də sonadək mübarizə aparmaq lazımdır. İndi topa çox nəzarət etmək vacib olsa da, həlledici amil deyildir. Belə görünür ki , futbolda fərdi ustalıq səviyyəsi əbədi amil olaraq qalacaqdır. Komandanın lideri olmalıdır və o, kollektivi arxasınca aparmağı bacarmalıdır. Lider olmayanda, estafeti əlində saxlaya bilənlərə güvənilməlidir. Hamının qəbul etdiyi yaxşı kapitan seçilməlidir. Böyük uğurlar qazanmaq üçün hər oyuna final matçı kimi baxmaq, tərin son damlasına qədər və son turadək savaşmaq lazımdır. Bu yolda ev və səfər oyunları da əhəmiyyət kəsb etməməlidir. Nəhayət, ən başlıcası - komandanın silahının komandanın ruhu olması bir an belə unudulmamalıdır.

Xaricdə formalaşmış futbol akademiyaları vardır və bacarıqlı futbolçular da burada yetişir. Ən qabaqcıl futbol akademiyaları böyük klublara məxsusdur. Gələcək vəd edən 17-18 yaşlı istedadları seçib komandalara cəlb etmək indi çox yayılıb. Gənc, perspektivli futbolçular dərhal nəhəng klubların maraq dairəsinə düşür. Xüsusi istedada malik futbolçuları isə təbii ki, hamı sevir. Amma hələ ki, Maradonalar, Messilər yetişmir. Görünür, bəlkə də onlar hətta futbolun mistik sirrlərini anlayanlar olublar.

## Hipermodernizm

İngiltərə Premyer Liqasına baxmağı sevən mütəxəssislər son illər ultra-müasir futbolun hipermodernist hücum stili variantını qabartmağa başlayıblar. Ortalıqda hamının açıq-aşkar gördüyü bir həqiqət var: İngiltərədə futbolun səviyyəsi yüksəkdir. Bu ölkədə tamaşaçı kontingenti də fərqlidir. Premyer Liqanın futbolçularında hədsiz oyun ehtirası müşahidə edilir. Məhz, bu ehtiras çox sürətli hücum üslubunu sanki yağışa çevirir. Coşubdaşmanın dərəcəsini bərk, fasiləsiz yağışda maşının şüşətəmizləyənlərinin çatdırmadığı ilə müqayisə etmək olar. Ona görə də burada azarkeşlər oyunları ayaqüstə izləməyə məcburdular.Yaşlılar, qadınlar, gənclər, uşaqlar yerlərində otura bilmirlər...Həyəcan, təlaş pik həddə çatır. Onlar başa düşürlər ki, daha sürətli futbol oynayan komanda qələbə qazanır. Qardiolanın təbirincə desək, bəzən baş məşqçi, futbolçular, tamaşaçılar da nəinki məğlubiyyəti, elə qələbəni də dərk edə bilmirlər. Buralarda futbolçuların emosionallığı aşıb-daşır. Əsəbi və çılğın futbolçulardan isə tamaşaçıların xoşu gəlir. Maraqlıdır ki , futbolçular bütün oyun ərzində yorulmurlar. Çünki oyunun ritmini tutmağı bacarırlar. Beləliklə, futbolda hipermodernizmi necə anlamaq olar? Hər şeydən əvvəl bu mənzərələrdə sanki gedişat , oyun prosesi gözlənilmədən plandan kənara çıxır. Yüksək sürət resurslarının fonunda oyunun xarakteri, tempi ani olaraq dəyişir. Burada artıq heyrətamiz yüksək sürət, təəccüb doğuran səhvsiz oyun tərzi çox şeyi həll edir. Futbolçular musiqidə olduğu kimi bütün mövqelərdə sanki ritmi tuturlar. Bu da nəticədə harmoniya yaradır. Ona görə də bəzən deyirlər ki, komandanın oyununda sanki bir harmoniya var, yəni olduqca yüksək sürət fonunda da futbolçular bir-birini gözəl anlayırlar. Müasir mütəxəssislər bunu harmonik əlaqə adlandırırlar. Mən bura bir "sinxron" sözünü də əlavə edərdim. Sinxron harmoniya isə nəticədə komandanın ideal formada olmasına gətirib çıxarır. Komandada sinxron harmoniya , harmonik vəhdət ifaçıları peşəkar olan ansamblı, orkestri xatırladır. "Solistlər" də mükəmməl sinxronluq yaradanda, komanda fantastik mövsümlər keçirir. Bu baxımdan "Mançester Siti", "Liverpul", "Çelsi","Arsenal", "Vest Hem", eləcə də "Real", "Bavariya", "Borussiya", "Leypsiq" və "Ayaks" kimi komandaların timsalında daha parlaq nümunələr görmək mümkündür.

Şahmatda belədir ki, improvizələr etməklə rəqibi çaşdırmaq olur. Görəsən futbolda da bu mümkündürmü? Futbolda da improvizasiyaya oxşar hallar müşahidə olunur. Məsələn, futbolçunun əla fərdi ustalığından qaynaqlanan hərəkətlər, əvvəlcədən hazırlanmış ev tapşırıqları, müəyyən sxemlər, sistemlər, gözlənilməz oyunçu dəyişiklikləri, ağılagəlməz taktiki gedişlər və sairə.

## Daha nələr və nələr...

Ultra-müasir futbol dövründə eyni zamanda xoşagəlməz meyllərin artdığını da qeyd etmək lazımdır. Bu gün futbolun ən təhlükəli simtomlarından biri kobud oyuna cəhd etməkdir. Futbolçular ciddi zədələr almamaları üçün özlərini qorumağa çalışırlar. Cərimə və künc zərbələri vurulan zaman cərimə meydançasında az qala əlbəyaxa "döyüş" gedir. Futbola indi sanki yeni virus yoluxub - simulyasiya. Son vaxtlar super klublarda futbolçular həddindən artıq yüklənirlər. Daxili çempionatlarda təqvimin sıxlığı, kubok oyunları (İngiltərədə bu rəqəm ikiyə bərabərdir - M.İ), ÇL, avrokuboklar, yığma komandada rəsmi və yoldaşlıq görüşləri, Millətlər Liqasının oyunları, klublararası dünya birinciliyinin yarışları və sairə.

Müasir dövrdə mükəmməl futbol oynamaq geniş spektrli anlayışdır. İndi futbolda inqilab etmək mümkündürmü? İnqilab olmasa da, futbolda da, necə deyərlər, kəşflər olub və olur. Qaydaların daha da təkmilləşdirilməsi yolu ilə mütamadi yeniliklərin tətbiqini müşahidə edirik. Nəhayət, futbol aləmində daha nələr yoxdur ki ?! Stadionları dolduran azarkeşlərə yanaşı, komandaların oyunlarını ekranlardan da milyonlarla futbol həvəskarı izləyir. Hər bir halda tamaşaçıları problemlər deyil, gözəl oyunlar, nəticələr maraqlandırır. Futbol teatrdır azarkeşlər üçün. Futbol meydanı müxtəlif enerjilərin kəsişdiyi, toqquşduğu bir məkandır. Ona görə də hərdən olur ki, komandanın oyunu sən istədiyin kimi alınmır. Və azarkeş də çaş-baş qalır. Elə həyatda olduğu kimi. Məhz, buna görə də futbolun sevinci də şirindir, qan-qaraçılığı da, hətta əzabı da. Yenə də hər bir halda futbol sirli dünyadır. Çox sirlərin ipucunu tapmaq, açmaq mümkün olsa da, bu sirrlər bitib-tükənmir. Elə həyatda olduğu kimi.

Aşağı, yerə dəyən topun yerdən aldığı güclə yenidən yüksəlib yuxarı havaya qalxması izah edilən olsa da, çox maraqlıdır. Axı , bəzən insan həyatı da belə olur. Gözəl futbol oyunlarına baxmaq - misli-bərabəri olmayan, bənzərsiz zövqdür. Vurulan əla, fantastik qollar isə, necə deyərlər, sadəcə "kosmosdur" !

# Dünya idmanı



## Həftəlik idman qoroskopu



**Qoç**
Bu həftə fiziki hazırlığınızı davam etdirəcəksiniz. Yorğunluğunuza baxmayaraq, başladığınız işi sona çatdıracaqsınız. Boş vaxtlarınızda hobbinizlə də məşğul olun. Bu, gərginliyinizi azaldacaq.

**Buğa**
Havalar isti keçdiyindən darıxırsınız. Ona görə də özünüzü yorğun hiss edirsiniz. Səhər idmanı ilə məşğul olun. Potensialınız var. Sevdiyiniz idman növü ilə məşğul olun. Həftə sonu sizi uğur gözləyir.

**Əkizlər**
Nə istədiyinizi özünüz də bilmirsiniz. Bir az istirahət etsəniz, yaxşı olar. Bu bürc altında dünyaya gələnlər həftə ərzində turizmə üstünlük verə bilərlər. Hər şey istədiyiniz kimi olacaq. Uğurlu gün şənbədir.

**Xərçəng**
Bu, sizin həftənizdir. Uğurların astanasındasınız. Hər şeyi ölçüb-biçməyiniz gərəkdir. Bu, sizin işinizin xeyrinədir. Sizin üçün uğurlu gün cümədir.

**Şir**
İntellektual idman növləri ilə məşğul olan şirlər üçün uğurlu həftədir. Məşqlərinizə davam edin. Yüngül idman hərəkətləri isə sizin sağlamlığınız üçün çox faydalıdır. Ən uğurlu gün çərşənbədir.

**Qız**
Həftənin əvvəlindən sonuna qədər sevdiyiniz işlə məşğul olacaqsınız. Fiziki hazırlığınızı artırmaq istəsəniz, yüngül idman hərəkətləri ilə kifayətlənin. Səhər qaçışları da sizin üçün çox faydalı ola bilər. Uğurlu gün şənbədir.

**Tərəzi**
Ulduzlar sizə tələsməməyi məsləhət görür. Atalar: "Tələsən təndirə düşər", - deyiblər. Bu həftə sizə bir qədər darıxdırıcı görünə bilər. Narahatlıq üçün heç bir əsas yoxdur. İşlərinizə və məşqlərinizə davam edin. Bəhrəsini görəcəksiniz. Uğurlu gününüz həftənin sonuncu günüdür

**Əqrəb**
Əqrəblər narahat olmaya bilərlər. Ulduzlar bu həftənin onlar üçün uğurlu keçəcəyini bildirir. Lakin bunun üçün bir qədər planlı hərəkət etmək lazımdır. Bu bürc altında doğulanlar sevdikləri idman növü ilə yanaşı, üzgüçülüklə də məşğul olsalar, yaxşı olar. Ən yaxşı gün bazar günüdür.

**Oxatan**
Əzgin və yorğun olmağınızın səbəblərindən biri də düzgün həyat tərzi keçirməməyinizlə bağlıdır. İdmanla məşğul olun. Axı idman sağlamlığın rəhnidir. Səhər qaçışları və üzgüçülük sizin üçün çox xeyirlidir. Cümə uğurlu gününüzdür.

**Oğlaq**
Oğlaqlar idmana meyilli olduqlarından çox fəaldırlar. Bu həftə də sevdiyiniz idman növü gərəyiniz olacaq. Özünüzü çox yaxşı hiss edəcəksiniz. Bu bürc altında doğulanlar döyüş idman növləri ilə məşğul olurlarsa, bu həftə uğur qazanacaqlar.

**Dolça**
Sizin həftəniz deyil. Buna baxmayaraq, narahat olmağa dəyməz. Planlaşdırdığınız işləri görün. Sağlamlığınızın qeydinə qalmağı da yaddan çıxarmayın. Bu həftə daha çox idmana üstünlük verməyiniz məsləhətdir. Bazar günü uğurlu olacaq.

**Balıqlar**
Bu həftə balıqlar özlərini çox rahat və sərbəst hiss edəcəklər. Əgər çəki probleminiz varsa, idman vasitəsilə məsələni öz xeyrinizə həll edə bilərsiniz. Səhər qaçışlarına üstünlük verin. Ulduzlar bazar ertəsini sizin üçün uğurlu gün sayır.

## Olimpiya çempionu beynəlxalq yarışlardan kənarlaşdırıldı



Rusiyanın tanınmış üzgüçüsü Yevgeni Rılov 9 ay müddətinə bütün beynəlxalq yarışlardan kənarlaşdırılıb. Bu barədə Beynəlxalq Üzgüçülük Federasiyasının (FINA) İntizam Komitəsi qərar çıxarıb. Cəza aprelin 20-dən qüvvəyə minib. İkiqat Olimpiya çempionu martın 18-də Krım və Sevastopolun ilhaqı ilə bağlı "Lujniki" stadionundakı tədbirdə iştirak etdiyi üçün sanksiyaya məruz qalıb.

Bundan əlavə, Rusiya və Belarus üzgüçüləri Ukraynadakı vəziyyətlə əlaqədar 2022-ci ilin sonunadək FINA-nın təşkilatçılığı ilə keçiriləcək yarışlara buraxılmayacaq.

Qeyd edək ki, Yevgeni Rılov Tokio-2020 Yay Olimpiya Oyunlarında iki qızıl medal əldə edib.

## olimpnews.az - sizin saytınız




## Maks Ferstappen Emiliya-Romanya Qran-Prisinin qalibidir




İtaliyada keçirilən Formula 1 üzrə Emiliya-Romanya Qran-Prisinə yekun vurulub. İmola trasında mövsümün dördüncü mərhələsinin qalibi "Red Bull"un niderlandlı pilotu Maks Ferstappen olub. Onun komanda yoldaşı olan meksikalı Serxio Peres ikinci yeri tutub. "McLaren"in britaniyalı sürücüsü Lando Norris isə üçüncü yeri tutub. Qeyd edək ki, Formula 1 üzrə Azərbaycan Qran-prisi 10-12 iyunda keçiriləcək.

## Ukrayna millisinin keçmiş üzvü müharibədə həlak oldu



Atıcılıq üzrə Ukrayna millisinin sabiq üzvü İvan Bidnyak Rusiya ilə müharibədə həlak olub. Bu barədə Ukrayna Milli Olimpiya Komitəsi məlumat yayıb. Beynəlxalq dərəcəli idman ustası Xerson vilayətində 36 yaşında dünyasını dəyişib.

Qeyd edək ki, İvan Bidnyak 2010 və 2013-cü illərdə Avropa çempionatlarında gümüş medal qazanıb. O, London-2012 Yay Olimpiya Oyunlarının iştirakçısı olub.

---

Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və MOK-un kollektivi Olimpiya dərəcəli hakim Hicran Şərifova, qardaşı

**Mövsüm İbrahim oğlu Şərifovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

---

Fazil Hadıbəyov, Nazir Rəhimov, Cəfər Hümbətov və Murad Fərzəliyev Olimpiya dərəcəli hakim Hicran Şərifova, qardaşı

**Mövsüm İbrahim oğlu Şərifovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

---

"Olimpiya dünyası" qəzetinin kollektivi Olimpiya dərəcəli hakim Hicran Şərifova, qardaşı

**Mövsüm İbrahim oğlu Şərifovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19